BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1* *Sosial-siyasi elmlər seriyası* *2014*

# İQTİSADİYYAT

**UOT 311:311.17:311.3 (479.24)**

## AZƏRBAYCANDA SIĞORTA BAZARI VƏ ONUN TƏNZİMLƏNMƏSİNDƏ VERGİ SİSTEMİNİN ROLU

**N.S.ƏYYUBOVA**
***Bakı Dövlət Universiteti***
***neyyubova@mail.ru***

*Məqalə Azərbaycanda sığorta bazarının durumunun təhlili, inkişaf meylinin prioritet tərəflərinin üzə çıxarılması, mövcud problemlərin araşdırılması, vergi "alətlərinin" bu proseslərə təsiri və perspektiv inkişafda rolunun dəyərləndirilməsi məsələlərinə baxılır. 2000-2011-ci illər üçün Azərbaycanın sığorta bazarında mütləq dəyişmə və artım tempi göstəriciləri müəyyən edilmiş, inkişaf yolunu izləməyə imkan verən qrafiklər təqdim olunmuş, sığorta bazarında perspektiv inkişaf üçün əhəmiyyətli ola biləcək nəticələr əldə edilmişdir. Araşdırmalar Dövlət Statistika Komitəsinin rəsmi mənbələrinin* (25.10.2013 tarixinə) *Azərbaycanda sığorta fəaliyyəti üzrə 2011-ci ilə qədər təqdim etdiyi məlumatlar əsasında aparılmışdır.*

*Burada həmçinin sığorta bazarının formalaşmasının beynəlxalq təcrübələrı araşdırılır, vergi sisteminin bu sahənin inkişafındakı rolu əsaslandırılır, Azərbaycanda sığorta sisteminin inkişafına müsbət təsir edə biləcək tövsiyyələr verilir. Təqdim olunan tövsiyələr və araşdırmaların nəticələri Azərbaycanda sığorta bazarının inkişaf strategiyasının formalaşmasında əhəmiyyətli ola bilər.*

**Açar sözlər:** sığorta sistemi, sığorta üzrə məcmu kapital, vergi tənzimlənməsi

Müasir dövrdə dövlətin, təşkilatların və vətəndaşların maddi maraqlarının müdafiə sistemi kimi baxılan sığorta sistemi bazar münasibətlərinin ayrılmaz bir hissəsi kimi çıxış edir. Düzgün formalaşmış sığorta bazarı isə müvəffəqiyyətlə inkişaf edən iqtisadiyyatın mühüm atributu və indikatoru hesab edilir.

Sığortalanma ziyanların ödənilməsini təmin etməklə yanaşı, həmçinin, dayanıqlı iqtisadi artımın əldə olunması üçün mühüm olan uzunmüddətli investisiya resurslarının stabil mənbəyidir. Bütün bunlar bazar iqtisadiyyatlı ölkələrdə sığorta sisteminin strateji mövqeyini müəyyən edir.

Son zamanlar Azərbaycanda sığorta bazarı iqtisadiyyatın dinamik inkişaf edən sektorlarından birinə çevrilmişdir. Toplanmış sığorta mükafatlarının illik artımı, sığorta şirkətlərinin kapitallarının böyüməsi, iri maliyyə strukturlarının sığorta işinə marağının yüksəlməsi sığorta sisteminin inkişafını, həmçinin,

xarici sığortaçıların Azərbaycanda fəaliyyətinin genişlənməsi bu sahənin maliyyə bazarında əhəmiyyətinin və maliyyə maraqlarının yüksəlməsini təsdiqləyir [1]. Qeyd edək ki, 2012-ci il üçün olan statistik məlumatlara görə respublikada fəaliyyət göstətən 29 sığorta şirkətindən 5-i İngiltərə, Türkiyə, İran, ABŞ və Rusiya həmkarları ilə Azərbaycan sığortaçılarının birgə fəaliyyətini təmsil edir [4, 404].

Vergitutma sığorta bazarında tələb və təklifi tənzimləyən əsas faktorlardan biridir. Bu baxımdan sığorta sahəsi üzrə büdcə gəlirlərinin artımını təmin edən, sığorta xidmətlərinə və bütövlükdə, sığorta bazarına tələbin inkişafını təmin edən effektiv, elmi əsaslandırılmış vergi mexanizminin yaradılması vacibdir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatları əsasında [4, 404] (cədvəl 1 bax) EXCEL paketi vasitəsilə 2000-2011-ci illərdə Azərbaycanda sığorta bazarının inkişaf dinamikasını əks etdirən poliqonu qurmuşuq (şək. 1).

Cədvəl 1

**Sığortaçıların məcmu kapitalı *(min manat)***

| | 2000 | 2005 | 2009 | 2010 | 2011 | |
|---|---|---|---|---|---|---|
| Məcmu kapital-cəmi | 11545,5 | 35988,4 | 120118,0 | 183139,1 | 273284,5 | o cümlədən: |
| Ödənilmiş nominal (nizamnamə) | 6057,6 | 32312,5 | 105256,9 | 172091,3 | 253124,0 | kapitalı |
| Yenidən qiymətləndirmə üzrə ehtiyat | 811,8 | 3326,5 | 12201,6 | 8505,4 | 8716,6 | kapitalı |
| Digər kapital ehtiyatları | 4676,1 | 349,4 | 2659.5 | 2542,4 | 11443,9 | |

**Mənbə:** Azərbaycanın statistik göstəriciləri, 2012, səh. 404

***Sığortaçıların məcmu kapitalı***




**Mənbə:** Qrafik Azərbaycanın statistik göstəriciləri (2012, səh.404) əsasında müəllif tərəfindən hazılanmışdır.

**Şək. 1.** 2000-2011-ci illərdə Azərbaycanda sığorta sistemi üzrə məcmu kapitalın və onun struktur göstəricilərinin dinamikası

Aşağıdaki dinamik inkişaf göstəricilərini statistik analiz metodlarından istifadə edərək analitik şəkildə müəyyən etmişik. Ümumi şəkildə məcmu kapitalı üzrə orta mütləq dəyişmə 261739,9 min manat, orta artım tempi 193% olmuşdur.

Məcmu kapitalın ayrı-ayrı struktur göstəriciləri üçün də müvafiq göstəricilər hesablanmışdır: ödənilmiş nominal(nizamnamə) kapitalı üzrə orta mütləq dəyişmə 247066,4 min manat, orta artım tempi 145%; yenidən qiymətləndirmə üzrə ehtiyat kapitalının orta mütləq dəyişməsi 790,48 min manat, orta artım tempi üzrə 126%; dıgər kapital növləri üzrə mütləq dəyişmə 676,78 min manat, orta artım tempi üzrə 109% təşkil etmışdir. Alınan nəticələr baxılan dövr ərzində Azərbaycanda sığorta sisteminin kifayət qədər dinamik inkişaf göstəricilərinə nail olduğunu təsdiqləyir.

Sığorta bazarının strukturunda bu illərdə baş verən dəyişikliklər diaqram 1-də daha yaxşı müşahidə edilir.




**Mənbə:** Diaqramlar Azərbaycanın statistik göstəriciləri (2012, səh.404) əsasında müəllif tərəfindən hazılanmışdır.

**Diaqram 1.** 2000-2011-ci illərdə Azərbaycanda sığorta bazarının struktur dəyişiklikləri (faizlə)

Dövlət ölkədə sığorta proseslərinin təşkil olunması, tənzimlənməsi yolu ilə sığorta bazarının fəaliyyətində aktiv iştirak edir. Bu, dövlətin sığorta sisteminin fəaliyyət göstərməsi üçün əsas faktorlardan biri hesab edilməsinə tam əsas verir. Sığorta bazarının dövlət tənzimlənməsi də əmək, kapital, sahibkarlıq fəaliyyəti kimi sığorta prosesinə cəlb olunmuş ayrılmaz bir iqtisadi resursa çevrilir. Eyni zamanda iqtisadi resursun sahibi kimi dövlətin sığorta bazarının iştirakçılarının vergi ödəmələri formasında sığorta sahəsindən əldə etdikləri gəlirlərin bir hissəsini almağa tam hüququ çatır.

Sığorta bazarı istənilən dövlətin maliyyə sisteminin mühüm "həlqə"sidir. Strukturuna və tərkibinə görə bu bazar kifayət qədər bircins deyil. Sığorta bazarının həcmi, dinamikası, regional və institusional strukturları daha çox inkişaf səviyyəsindən və xüsusilə, bir çox hallarda, ayrı-ayrı seqmentlərinin inkişaf həddindən asılı olur. Sığorta bazarının subyektləri üçün hal-hazırda işləyən vergi qanunları bu bazarın ayrı-ayrı seqmentlərinə əhəmiyyətli dərəcədə təsir edir. Sığorta bazarının seqmenti dedikdə sığortaçılar (istehsalçılar) və sığorta olunanlar (istehlakçılar) qruplarını birləşdirən tərkib hissəsi başa düşülür. Azərbaycanın sığorta bazarı fəaliyyət göstərən vergi qanunvericiliyinə görə sığorta ilə müdafiə olunan obyektlərin fərqlərinə görə (burada sığortalanmanın məzmunundakı fərq nəzərdə tutulur) iki böyük seqment ilə klassifikasiya olunur: şəxsi sığorta (həyat sığortası) və əmlak sığortası.

Əldə olunan nailiyyətlərlə yanaşı sığorta bazarının formalaşması dövründə yaranan bir sıra problemlər hələ də öz həllini tapmamışdır. Ekspertlərin fikrinə görə Azərbaycanda sıgorta bazarının inkişafı və təkmil formalaşması üçün əlverişli şərait yaradılsa da, sıgorta bazarı hələ də ölkənin maliyyə sektorunun digər seqmentlərindən geri qalır. Azərbaycanda sıgorta bazarı inkişafı istiqamətində aparılan islahatlar vergi və maliyyə sistemində aparılan islahatlardan keyfiyyət və həcminə görə geri qalır. Dünyanın bir sıra inkişaf etmiş ölkələrinin sıgorta şirkətləri Azərbaycanda ciddi investisiya qoyuluşları ilə məşğul olsalar da, bu proses hələ öz inkişafını tapmayıb[1] [7].

Belə vəziyyətin yaranmasına səbəb vergi qanunvericiliyində çatışmazlıqlar, sığorta sferasının vergi mexanizminin qurulmasındakı xətalar, həmçinin, müvafiq nəzarətedici orqanların zəif fəaliyyətidir. Hələ də sığorta bazarının dolayı tənzimləyiciləri tam olaraq qiymətləndirilməyib. Xüsusilə, dövlət tərəfindən vergi tənzimlənməsini qeyd etmək olar. Bununla bağlı olaraq, fiskal və tənzimləyici xüsusiyyətlərlə ifadə olunan sığorta sferasının böyük vergi potensialı realizə olunmayıb. Vergiödəmənin sığorta bazarında tələb və təklifi tənzimləyən əsas faktorlardan biri olduğunu nəzərə alaraq sığorta sferasında büdcə gəlirlərinin artımını təmin etməklə yanaşı, həm də sığorta xidmətlərinə və bütövlükdə sığorta bazarına tələbin inkişafını təmin edən effektiv, elmi əsaslandırılmış vergi mexanizminin yaradılması vacibdir.

[1] Parlamentin İqtisadi siyasət Komitəsinin sədri Z.Səmədzadə

Bazar iqtisadiyyatlı inkişaf etmiş ölkələrdə vergitutmanın əsas prinsiplərindən biri vergi sisteminin müxtəlif yönümlü iqtisadi fəaliyyət növləri üzrə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsidir. Əlverişli vergi mühitinin yaradılması müxtəlif vergi güzəştlərinin verilməsi yolu ilə reallaşdırılır.

Müasir vergi sistemlərində iqtisadi fəaliyyətin stimullaşdırılması məqsədilə vergi güzəştlərinin vergi dərəcələrinin aşağı salınması, zərərin gələcək dövrlərə keçirilməsi, kapital qoyuluşlarına vergi güzəştlərinin verilməsi, vergi tətillərinin tətbiqi, uzunmüddətli investisiya zamanı kapital artımından əldə edilən gəlirlərə güzəştli vergi rejiminin tətbiq edilməsi və s. formalarından istifadə olunur.

Azərbaycan Respublikasında zərərin keçirilməsi ilə bağlı vergi ödəyicilərinə güzəştin verilməsi məsələlərini tənzimləyən normalar Vergi Məcəlləsi ilə müəyyən edilmişdir. Məcəllənin 121-ci maddəsinə əsasən, müəssisənin gəlirlərdən çıxılmasına yol verilən xərclərinin gəlirdən artıq olan hissəsi 5 ilədək davam edən sonrakı dövrə keçirilir və illər üzrə məhdudiyyət qoyulmadan həmin illərin mənfəəti hesabına kompensasiya edilir. Belə güzəştlərin verilməsi bütün hallarda eyni məqsəd daşıyır. Bu, hesabat ilini zərərlə başa vurmuş vergi ödəyicilərinin zərərinin gələcək dövrlərin mənfəəti ilə kompensasiya edilərək vergi yükünün azaldılmasına və nəticədə iqtisadi fəaliyyətin inkişaf etdirilməsinə tələb olunan sərbəst maliyyə vasaitlərinin formalaşması üçün imkan yaradır [8].

Son zamanlar bu istiqamətdə aparılan işlər geniş vüsət alıb. Belə ki, 13 noyabr 2013-cü il tarixdə Milli Məclisin İqtisadi Siyasət Komitəsinin iclasında Azərbaycan Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında, Əmtəə nişanları və Sıgorta göstəriciləri haqqında və başqa məsələlər haqqında qanunlara dəyişiklik edilməsi qanun layihələri müzakirə edilmişdir [7].

Milli Məclisin İqtisadi Siyasət Komitəsinin sədrinin “Azərbaycanın sığorta bazarının inkişaf dinamikası – 2003-2013” adlı konfransda çıxışında qeyd etmişdir: “Sıgorta ilə əlaqədar dövlət siyasəti uğurla həyata keçirilir və nəticədə böyük nailiyyətlər əldə edilib. İndi hədəf 2020-ci ilədək sıgorta bazarında yığımları 1 milyard manata çatdırmaqdır. Bunun üçün yığımların illik 15%-i kifayət edəcəkdir. Halbuki, son 10 il ərzində sığorta haqlarının illik artımı orta hesabla 23% təşkil edib”[7].

Dövlət ölkədə sığorta proseslərinin təşkil olunması, tənzimlənməsi yolu ilə sığorta bazarının fəaliyyətində aktiv iştirak edir. Bu, dövlətin sığorta sisteminin fəaliyyət göstərməsi üçün əsas faktorlardan biri hesab edilməsinə tam əsas verir. Sığorta bazarının dövlət tənzimlənməsi də əmək, kapital, sahibkarlıq fəaliyyəti kimi sığorta prosesinə cəlb olunmuş ayrılmaz bir iqtisadi resursa çevrilir. Eyni zamanda iqtisadi resursun sahibi kimi dövlətin sığorta bazarının iştirakçılarının vergi ödəmələri formasında sığorta sahəsindən əldə etdikləri gəlirlərin bir hissəsini almağa tam hüququ çatır.

Müasir sığorta bazarı kifayət qədər mürəkkəb şəraitdə fəaliyyət göstərərək inkişaf edir. Sığorta sisteminin inkişafını stimullaşdırmaq üçün dövlət

tənzimləyici tədbirlər vasitəsilə bu sahəyə tam olaraq və bəzən sığortanın ayrı növlərinin inkişafına dəstəyi təmin olunmalıdır. Hesab edirik ki, sığorta bazarının sosial və iqtisadi istiqamətdə olan seqmentlərinin inkişafı prioritet kimi qəbul edilməlidir. Bu mənada aşağıda sadalanan seqment növlərini qeyd etmək olar:

- ehtiyatları iqtisadiyyata uzunmüddətli investisiyaların mühüm əsası olan həyat sığortası;
- icbari tibbi sığortaya nəzərən, tibbi xidmətlərin daha yüksək səviyyəsini və şəffaflığını təmin edən tibbi sığortaya daxil olan könüllü tibbi sığorta;
- vətəndaşların tam sosial müdafiəsini təmin edən müxtəlif növ məsuliyyət sığortası.

Sığorta bazarı seqmentlərinin vergi ödəməsi və vergi tənzimlənməsi problemlərini araşdırdıqda bu seqmentlərin klassifikasiyasına institusional yanaşmadan istifadə etmək vacibdir. Bu sığorta bazarının hər seqmentinin institusional aspektdə kifayət qədər mürəkkəb struktura malik olması ilə izah olunur.

Sığorta bazarının müxtəlif seqmentləri üçün bağlanan sığorta müqavilələrinin növündən, yenidən sığortalanma şərtlərindən asılı olaraq onun subyetlərinin tərkibi əhəmiyyətli dərəcədə fərqlənə bilər. Sığorta sisteminin ayrı götürülmüş seqmentlərinin və bütövlükdə, sığorta fəaliyyətinin xüsusiyyətlərini nəzərə alan bu yanaşma sığorta bazarının müvafiq seqmentlərinin vergi tənzimləməsi tədbirlərinin realizasiyasında diferensasiyanı təmin edir.

Praktikada sığorta bazarının vergi tənzimlənməsinin qiymətləndirilməsi və bu tənzimlənmə üçün konkret alətlərin seçimi müəyyən problemlərlə mürəkkəbləşir. Bu səbəblərdən biri sığorta bazarına bütövlükdə, onun ayrı-ayrı seqmentlərinə və həmçinin, sığorta bazarının subyektlərinin fəaliyyətinə vergitutma ilə bağlı məsələlərin təsirinin qiymətləndirilməsinə sistemli yanaşmanın olmamasıdır. Çox zaman sığorta bazarında vergitutma problemlərinə sığortaçıların mövqeyindən onların gəlirlərinin vergiyə cəlb olunması nöqteyi-nəzərindən baxılır. Sığortaçıların fəaliyyətinin vergilərlə bağlı başqa aspektləri və sığorta bazarının digər subyektlərinin vergi ödəmə məsələləri isə tədqiqat obyektinə çevrilmir.

Vergi metodlarından istifadə edərək dövlətin sığorta fəaliyyətini tənzimləməsi inkişaf etmiş ölkələrdə geniş və müxtəlif tətbiqetmə təcrübəsinə malikdir. Son illərin tendensiyası sığorta fəaliyyəti üçün daha elastik və daha effektiv vergi sisteminin qurulmasını ifadə edir. Bu vergi münasibətləri isə, ilk növbədə, liberal stimullaşdırmaya və vergilərin yalnız fiskal (büdcə gəlirlərinin artmasına xidmət edən funksiya) funksiyasından imtina olunmasına əsaslanır.

Dünya sığorta təsərrüfatının qloballaşdırılması çərçivəsində milli vergi qanunvericiliyinin unifikasiyası (vahid sistemə birləşməsi) və sığorta fəaliyyətinin dövlət tənzimlənməsinin vahid sisteminin formalaşmasında son onilliklərdə irəliləyişlər baş vermişdir. Bu, Avropa Birliyi üzvləri olan

dövlətlərdə sığortaçıların mühasibat və vergi uçotlarının ümumi baza prinsiplərinin və sığortaçıların hesabat, maliyyə uçotlarının vahid beynəlxalq standartlarının formalaşmasına xidmət edən Avropa Birliyinin bir sıra Direktivlərində öz təzahürünü tapır. Lakin inteqrasiya proseslərinin perspektiv inkişafı Avropa ölkələrində sahibkarlıq fəaliyyəti üçün eyni şərait yaradacaq milli vergi tənzimlənməsinin daha kordinal və dərin aparılmasını, vahid sistemdə birləşməsi məsələlərini kəskin və sərt şəkildə ortaya qoyur. Təəssüflər olsun ki, baxilan sferada avropa ölkələri bir qədər passivlik göstərirlər. Məsələn, bunun nəticəsi kimi 90-cı illərdə ümumi avropa vergi islahatlarının həddən artıq məhdud xarakter daşımasını göstərmək olar [2,3] .

Dövlət vergi tənzimlənməsi sığorta bazarının Qərbi Avropa dövlətlərində analoqu olmayan, ABŞ-da işlənmiş və effektiv olaraq tətbiq olunan bir sıra həll variantlarını və ya qərarları irəli sürdü. Bu yanaşmalar vergi qanunvericiliyinin detallı işlənilməsini, metodların diversifikasiyasını, müxtəlifliyini və dünya sığorta təsərrüfatında Amerika bazarının lider mövqeyini izah edir.

Azərbaycanda sığorta bazarının subyektləri üçün metodoloji yanaşmaların inkişaf etdirilməsi, sığorta fəaliyyətində vergi mexanizmlərinin təkmilləşdirilməsi təkliflərinin işlənilməsi əsasında rasional vergi sisteminin qurulması bu sahənin perspektiv inkişafı yolunda əsas məqsədə çevrilməlidir.

Bu məqsədin reallaşması üçün aşağıdakı məsələlərin yerinə yetirilməsini əhəmiyyətli hesab edirik:

- vergitutma mövqeyindən sığorta fəaliyyətinin xüsusiyyətlərinin üzə çıxarılması;
- sığorta bazarı subyektləri üçün vergi sisteminin metodoloji və təşkilati məsələlərinin müəyyən olunması (verginin mahiyyəti, funksiyaları və perspektivləri nəzərdə tutulur);
- sığorta bazarı subyektləri üçün vergiödəmə sisteminin formalaşma tendensiyasının və təkamülünün izlənilməsi;
- sığortaçıların və sığorta olunanların fəaliyyət göstərən vergi mexanizmlərinin köməyi ilə sığorta sferasının aktual problemlərinin tədqiq olunması;
- sığorta bazarının subyektləri üçün vergi sisteminin təkmilləşdirilməsi istiqamətində təkliflər kompleksinin işlənilməsi.

Beləliklə, formalaşma və inkişaf mərhələsində olan Azərbaycan sığorta bazarı sığorta fəaliyyətinin dövlət vergi tənzimlənməsinin daha da təkmilləşdirilməsini, milli iqtisadiyyatın sığorta sektorunun inkişafının effektivliyini artırmaq üçün vergi "alət"lərinə yenidən baxılmasını tələb edir.

## ƏDƏBİYYAT

1. http://www.azstat.org/MESearch/details, (25.10.2013) / Sığorta təşkilatlarının əsas maliyyə göstəriciləri
2. Глобализация мирохозяйственных отношений. Сущность, формы и перспективы. Учебное пособие. М.: Дипломатическая Академия МИД РФ, 1999, 153 с.

3. Адамчук Н.Г. Мировой страховой рынок на пути глобализации. М.: Московский Государственный Институт международных отношений: Российская политическая энциклопедия (РОССПЕН), 2004, 591 с.
4. Azərbaycanın statistik göstəriciləri. Bakı: Səda, 2012, 814 s.
5. Клейнер Г.Б. От теории предприятия к теории стратегического управления // Российский журнал менеджмента, 2003, №1, с.31-36.
6. Xankişiyev B.A. Sığorta fəaliyyətinin əsasları. Dərs vəsaiti. Bakı: İqtisad Universiteti, 2006, 274 s.
7. www.marja.az/businec/itemlist
8. www.marja.az/financial/news

## СТРАХОВОЙ РЫНОК АЗЕРБАЙДЖАНА И РОЛЬ НАЛОГОВОЙ СИСТЕМЫ В ЕГО РЕГУЛИРОВАНИИ

**Н.С.ЭЙЮБОВА**

### РЕЗЮМЕ

Статья посвящена вопросам регулирования страхового рынка на настоящем этапе развития, которая является неотъемлемой частью рыночной экономики, выявлению приоритетных сторон тенденции развития, о роли и значимости налоговых «инструментов» в этих процессах «сегодня» и в перспективе. Определены абсолютный прирост и увеличение темпов роста за отчетный период с 2000-го по 2011-й годы и представлены графики для отслеживания пути развития. Анализируя существующие проблемы, исследователь получил результаты, которые могут быть значимы для будущего развития страхового рынка Азербайджана. Результаты получены на основе данных в области страховой деятельности, представленных официальными источниками Госкомстата Республики за период охватывающий 2000-2011 годы (25.10.2013).

Изучая международную практику формирования страхового рынка автор отмечает положительные аспекты, обосновывает роль налоговой системы в развитии этой отрасли и дает рекомендации, которые в будущем смогут внести свой вклад в развитие страхового рынка. Полученные выводы и рекомендации, как результат анализа, могут быть значимы в формировании стратегии развития страховой системы Азербайджана.

**Ключевые слова:** система страхования, общий капитал по страхованию, налоговое регулирование

## THE INSURANCE MARKET OF AZERBAIJAN AND THE ROLE OF THE TAX SYSTEM IN ITS REGULATION

**N.S.AYYUBOVA**

### SUMMARY

The article is devoted to the questions of regulation of the insurance market at the real stage of development, which is an integral part of market economy, to identification of the priority sides of a tendency of development, and the role and importance of tax "tools" in these processes "today" and in the perspective.

The author used statistical methods of the analysis according to structural changes on the basis of private coefficients of a pure gain and growth rate for analysing the current situation and for defining a trend of development in the field of research. The author defined a

pure gain and increase in growth rates for the reporting period from the year 2000 to 2011 in an analytical form and submitted schedules for tracking the way of development. Analyzing existing problems, the researcher received results, which can be significant for future development of the insurance market of Azerbaijan. Results are received on the basis of data in the field of the insurance activity, presented by official sources of State Statistical Commitee of the Republic of Azerbaijan for the period covering years 2000-2011. (25.10.2013)

The author, studying the international practice of formation of the insurance market, notes positive aspects, proves a role of tax system in the development of this branch and gives recommendations, which can make the contribution to the development of the insurance market in future. The received conclusions and recommendations can be significant in the formation of the strategy for the development of the insurance system in Azerbaijan.

**Key words:** insurance system, general capitals of insurance, tax regulation